Azərbaycan dili və ədəbiyyat tədrisi
2026 / Cild 72, Nömrə 3 / 58–67
https://doi.org/10.48445/n5876-6996-1164-x

Savad təlimi dövründə ilk qrammatik məlumatların verilməsi

Fəridə Səfərəliyeva [1]

XÜLASƏ

Ana dilinin qorunması milli kimliyin formalaşmasına birbaşa təsir göstərən əsas amillərdəndir. Xalqın ruhu, dünyagörüşü, düşüncə tərzi məhz ana dili vasitəsilə ifadə olunur. Uşaqların milli-mənəvi dəyərlərə, dilinə və dövlətinə bağlı şəxsiyyət kimi yetişdirlməsi baxımından ana dilinin əhəmiyyəti böyükdür. Bu proses sinifdən savad təlimi dövründən başlayaraq reallaşdırılmalıdır. Müasir savad təliminin elmi əsasını dilimizin fonetik səs sistemi təşkil edir. Məhz savad təlimi dövründə məşğələlərin düzgün təşkili müəllimin dilimizin səs sistemini nə dərəcədə bilməsindən asılıdır. Fonetika və fonologiya qrafika ilə birlikdə savad təlimi metodikasının, sadə oxu texnikasının işlənməsinin əsasını təşkil edir. Nitq səslərinin öyrənilməsi savad təliminə hazırlıq dövründən başlanır. Məhz bu dövrdə şagirdlərin fonematik eşitmə qabiliyyətləri inkişaf etdirilir. Bu da öz növbəsində şagirdlərin dilimizin səs sistemi ilə praktik tanışlığını təmin edir. Şagirdlər nitqimizi təşkil edən cümlələrin sözlərdən, sözlərin hecalardan, hecaların nitq səslərindən əmələ gəldiyini öyrənirlər. Onlar nitq səslərindən heca, hecalardan söz, sözdən cümlə, cümlədən nitq qurmaq kimi ilkin bacarıqlara yiyələnirlər. Savad təlimi dövründə nitq inkişafı üzrə iş nitq səsləri və sözlərin düzgün tələffüzünü, lüğət ehtiyatının zənginləşdirilməsini, cümlələrin və rabitəli nitqin qurulmasını əhatə edir.

AÇAR SÖZLƏR

savad təlimi, nitq inkişafı, ilkin yazı bacarığı

MƏQALƏ TARİXÇƏSİ

Göndərilib: 19.03.2026
Qəbul edilib: 02.09.2026

[1]Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan
https://orcid.org/0000-0003-1161-5759 | f.safaraliyeva@mail.ru

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Teaching of Azerbaijani Language and Literature
2026 / Volume 72, Number 3 / 58–67
https://doi.org/10.48445/n5876-6996-1164-x

The First Grammar in the Period of Literacy Training Providing Information

Farida Safaraliyeva [1]

ABSTRACT
The preservation of the native language is one of the main factors that directly affect the formation of national identity. It is through the native language that the spirit, worldview and way of thinking of the people are expressed. The importance of the native language is great in terms of raising children as individuals attached to national and moral values, language and state. And this should be done from the first grade, starting from the period of literacy training. It is during the period of literacy training that the correct Organization of classes depends on how well the teacher knows the sound system of our language. Phonetics and Phonology, together with graphics, form the basis of the methodology of literacy training, the development of simple reading techniques. The scientific basis of modern literacy training is the phonetic sound system of our language. The teaching of speech sounds begins in the period of preparation for literacy training. It is during this period that the phonematic hearing abilities of students are developed. This, in turn, provides students with practical acquaintance with the sound system of our language. Students learn that the sentences that make up our speech are formed from words, words from syllables, syllables from speech sounds. They acquire such initial skills as building a syllable from speech sounds, a word from syllables, a sentence from a word, and speech from a sentence. Work on speech development during the period of literacy training includes the correct pronunciation of speech sounds and words, the enrichment of vocabulary, the construction of sentences and communicative speech.

KEYWORDS
literacy training, speech development, initial writing skills

ARTICLE HISTORY
Received: 19.03.2026
Accepted: 02.09.2026

[1]Doctor of Philosophy in Pedagogy, Associate Professor, Azerbaijan State Pedagogical University. Azerbaijan
https://orcid.org/0000-0003-1161-5759 | f.safaraliyeva@mail.ru

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Giriş

Ana dili tədrisi metodikasının əsas məqsədi şagirdlərin dil bacarıqlarını – dinləmə, danışma, oxu və yazı sahələrində inkişaf etdirməkdir. Bilirik ki, metodika pedaqogika və dilçilik elmlərinin qarşılıqlı təsiri əsasında formalaşır. Müasir təhsil mühitində ənənəvi yanaşmaların yetərsiz olduğu və yeni metodik yanaşmaların tətbiqinin zəruriliyi geniş şəkildə qəbul edilir. Bu yanaşmalar şagirdlərin fəal iştirakını təmin edərək onların dərslərə olan marağını artırır. Savad təlimi isə şagirdlərin təhsilinin, gələcək inkişafının bünövrəsi hesab edilir. Bu dövrdə başlıca məqsəd uşaqlara ilkin oxu və yazı bacarıqları aşılamaq, onların təlimə marağını artıraraq oxu və yazı texnikasını, nitqini, təfəkkürünü inkişaf etdirməkdir.

Metodlar

Məqalədə müşahidə, müsahibə, nəzəri-təhlil, emprik metodlarından istifadə olunmuşdur. Bu zaman müəllim müşahidə metodu vasitəsilə şagirdin səs-hərf uyğunluğunu, oxu sürətini və düzgünlüyünü, səsləri ayırdetmə bacarığını praktik tapşırıqlar vasitəsilə müəyyənləşdirir. Müsahibə metodu isə şagirdin anlama səviyyəsini, söz ehtiyatını, dərketmə qabiliyyətini müəyyənləşdirmək üçün istifadə olunur. Emprik, müşahidə, müsahibə metodları savad təlimi dövründə bir-birini tamamlayır.

Nəticələr

Savad təlimi dövründə tələffüz və nitq səslərinin qavranılması sahəsindəki səhvlər daha xaraktertik olur. Adətən uşaqların artikulyasiyasının süstlüyü r-l, s-ş, z-j, k-g səslərinin yanlış tələffüzü ilə xarakterizə edilir. Onların nitqində kəkələmək, pəltəklik kimi xüsusiyyətlər özünü aydın şəkildə göstərir. Danışarkən sözü axıradək tələffüz etməmək, səs, heca buraxmaq və ya artırmaq, sözlərin yerini dəyişmək, həmçinin yerli şivə xüsusiyyətlərinə yol vermək bu yaş dövrü üçün xarakterik xüsusiyyətlərdir.

I sinif Azərbaycan dili dərsliyində Ad bildirən sözlər başlığı altında qaydalar verilib.

Kim?	Nə?	Hara?
Məşqçi	saat	meşə
Ayan	oyun	oyun

(Nurullayeva, Allahverdiyeva, 2020, s. 50).


Tapşırıq C-də yazılıb. Sözləri köçürün. Qarşısında suallarını yazın.

Nümunə: Kitab – nə?

Oğlan, park, corab, ev, Tural, gül, Bakı.

Bu tapşırıqları yerinə yetirməklə şagirdlər ad bildirən sözlər haqqında ilkin biliklər qazanır. III sinifdə isə isimləri termin olaraq öyrənirlər.

Dərslikdə verilmiş başqa bir tapşırıqda heca sayı eyni olan sözləri tapmaq tələb olunur.



(Nurullayeva, s. 23).

Dərslik müəllifləri "hobbi", "pazl" kimi sözləri tapşırığa salmaqla şagirdlərin yaş səviyyəsini nəzərə almağı sanki unudublar. Məgər bizim milli sözlərimiz yoxdurmu? Dərsliyə nəzər saldıqda görürük ki, sözlər şagirdlərin yaş və bilik səviyyəsinə uyğun deyil. İbtidai sinif müəllimi yazılışı çətin sözlərə fərqli yanaşmalıdır. Hər bir sözün çətinlik dərəcəsi, fəal lüğətə daxil olub-olmaması, çoxişlək olması, dərslikdə neçə dəfə təkrarlanması nəzərə alınmalıdır. Belə bir sual yaranır ki, hər dərsdə məktəblilərə neçə yazılışı çətin söz öyrətmək didaktik cəhətdən mümkündür? Hər seçilən mövzu ilə əlaqədar şagirdlərə 2-3 sözün öyrədilməsi məsləhətdir. Bu sözlər əvvəlki dərslərdə öyrədilənlərlə mütləq əlaqələndirilməli, onların digər sözlərin oxşar orfoqramları ilə müqayisəsi və təhlili həyata keçirilməlidir. Yazılışı çətin sözlər əvvəlcədən qruplaşdırılmalı, ayrı-ayrı mövzular üzrə öyrədilməsi zəruri sayılanlar praktik çalışmalara daxil edilməlidir. Təbii ki, tədris zamanı həmin sözlərin öyrədilməsinə müntəzəm və sistemli yanaşılmalıdır. Həmçinin, I sinifdən başlayaraq sözün səs-hərf tərkibi, onun mənası açıqlanmalıdır. Dərslikdə ilk 3 bölmədə dil qaydaları üzrə aşağıdakı terminlər haqqında ilkin təsəvvür yaradılır:

1-ci bölmə - Səs-hərf, söz, sait-samit, heca;

2-ci bölmə - Cümlə, nəqli cümlə, sual cümləsi, nöqtə, sual işarəsi;

3-cü bölmə - Ad bildirən sözlər, əlamət bildirən sözlər, hərəkət bildirən sözlər, say bildirən sözlər.

I–IV sinif şagirdlərinə kalliqrafik qaydaları hərflərinin öyrədilməsi, oxu üzrə ilkin bacarıqların formalaşdırılması, lüğət ehtiyatının zənginləşdirilməsi, qrammatik qaydaların və ədəbi tələffüz normalarının öyrənib tətbiq etməsi müəllimin qarşısında duran əsas vəzifələr sırasındadır. Həmçinin dərsliklərdə olan mövzular ekspressiv nitq bacarıqlarının formalaşdırılması ilə yanaşı, dilimizin, əxlaqi-mənəvi keyfiyyətlərimizin, mədəniyyətimizin, adət-ənənələrimizin öyrənilməsi baxımından şagirdlərə böyük imkanlar yaradır.

Bu gün ibtidai sinif şagirdləri üçün dərslikdən əlavə maarifləndirici kitablar da nəşr olunmaqdadır. Bunlardan biri "Valideyn bələdçisi"dir. Bu kitabla I sinfə getməmişdən öncə valideynlərin tanış olmaları məqsədəmüvafiqdir. Dərslikdə qeyd olunur ki, məktəbə yenicə qədəm qoyan şagirdlər informasiyanı, əsasən, dinləmə ilə əldə edirlər. Şagirdlərdə sürətli oxu vərdişi formalaşana qədər istənilən verbal məlumat onlara, əsasən, şifahi nitq vasitəsilə çatdırılır. Odur ki məktəbə hazırlaşan uşaqların dinləmə bacarığının inkişafı xüsusi əhəmiyyət kəsb edir. Məktəbə bir neçə ay qalmış övladınızın dinləmə bacarığını nəzarətdə

saxlayın və inkişafı üçün şərait yaradın: müraciət olunarkən diqqətlə dinləməyin vacib olduğunu izah edin; mütəmadi olaraq maraqlı hadisələr, nağıllar, hekayələr danışın; mətndə zaman, məkan, şəxs, hadisə ilə bağlı suallar verməklə mətni necə dinlədiyini yoxlayın. Dinləmə bacarığının ilkin göstəricisi eşidilən suala uyğun cavab və ya tapşırığa müvafiq reaksiyadır. Vacibdir ki, uşaq dinlədiyi sual və tapşırığın mahiyyətini başa düşsün. Mətnin bir hissəsini oxuduqdan sonra həmin hissə ilə bağlı şəkilləri ona göstərin, çalışın ki, uşaq şəkli şərh etsin. Danışma. Danışma bacarığı təfəkkürün inkişafına və uşağın sosial mühitdə (sinifdə) özünü təsdiq etməsinə, nüfuz qazanmasına kömək edən vacib nitq bacarığıdır. Övladınızın danışma bacarığının inkişafı üçün aşağıdakı tövsiyələrə əməl edin: onu daim danışmağa həvəsləndirin; fikir və duyğularını səmimi və sərbəst şəkildə, çəkinmədən ifadə etməsinə imkan yaradın; "Sən bu haqda nə düşünürsən?" və ya "Sən olsaydın, nə edərdin?" kimi suallar verməklə onu dinlədiyi mətndə təsvir olunan və ya ətrafda baş vermiş hadisələrin müzakirəsinə cəlb edin (Salayev, 2020, s. 4). Kitabda dinləyib-anlama, danışma ilə bağlı tövsiyyələr hər bir məktəbli üçün önəmlidir. Bəzən valideynlər biz uşaqların suallarını cavablandırmaqdan boyun qaçırır. Halbuki, şəkilli nağıllar oxumaqla, uşaqlara sual verməklə onların nitqini və təfəkkürünü formalaşdırmaq mümkündür.

Oxu bacarıqları. Uşaqlarda şifahi nitq bacarıqları, yəni dinləmə və danışma bacarıqları erkən yaşlarda təbii yolla, oxu və yazı bacarıqları isə xüsusi tədris şəraiti və resurslarla həyata keçirilir.

Tədris resursları arasında kitab önəmli yer tutur. Buna görə də uşaqlarda kitabla düzgün davranış qaydaları haqqında anlayışlar formalaşdırmaq zəruridir. Oxu bacarığının inkişafında ilkin mərhələ hərflərin tanıdılmasıdır. Azərbaycan dili üzrə məktəbəqədər təhsil proqramına görə, uşaqlar I sinfə gedənə qədər ən azı çap hərflərini tanımalıdırlar. Əgər övladınız məktəbəhazırlıq kurslarına gedibsə, deməli, ilkin oxu bacarıqlarına yiyələnib. Əgər bu kurslara getməyibsə, siz bir neçə ay ərzində uşaqda bu bacarıqları özünüz formalaşdıra bilərsiniz. Bu, çox vacibdir, çünki birinci sinfin ilk həftələrində uşaqlar hərfləri, sadəcə, təkrarlayır və bundan dərhal sonra oxu prosesinə keçirlər. İlkin oxu bacarıqları nə deməkdir? Biz nə zaman deyə bilərik ki, uşaq hərfləri artıq tanıyır? Uşaq aşağıdakı bacarıqları mənimsəyibsə, o, əlifbanı öyrənmiş hesab edilir. Çap hərfini göstərəndə onu düzgün tələffüz edir; hərfi səsləndirəndə onu düzgün göstərir və ya yazır; yazılışı oxşar olan hərfləri fərqləndirir (b–d, q–p, c–ç, g–ğ, ı–i, s–ş və s.); səslənməsinə görə oxşar hərfləri fərqləndirir (z–s, ğ–x–h, d–t, b–p və s.).

Müzakirə

Ana dilinin təlimi biliklərin inteqrasiyasında mühüm əhəmiyyətə malikdir. İnteraktiv təlimin ən optimal yolu isə ibtidai siniflərdən – fənlərarası əlaqə prinsiplərindən düzgün istifadə etməkdən başlanır. Biliklərin inteqrasiyası şəraitində mühakimə yürütmək,əqli nəticələrə gəlmək bədii təfəkkür fəaliyyətini daha yaxşı formalaşdırır (Səfərəliyeva, 2014, s. 26). Azərbaycan dili və oxu dərslərinin əlaqəli şəkildə tədris olunması nitq inkişafı, ədəbi tələffüz və ifadəli oxu vərdişlərinin formalaşdırılması baxımından zəruridir. Dil dərslərində qayda və qanunları şüurlu şəkildə qavrayan şagird qazandığı nəzəri bilikləri oxu dərslərində praktik yolla daha dərindən öyrənir.

Uşaqların məktəbəqədər yaş dövründə bəzi xüsusiyyətləri disleksiyanın əlamətləri ola bilər. Məsələn:

- ümumi nitq inkişafının gecikməsi;
- uzun sözlərin son hecalarını və şəkilçilərini tələffüz edə bilməməsi;
- cümləni düzgün qura bilməməsi;
- əlifbanı əzbərləməkdə çətinlik çəkməsi;
- şifahi nitq bacarıqlarının məhdud olması.

Birinci sinifdə disleksiya ilə bağlı problemləri daha aydın görmək olar. Məsələn:

- hərflə səs arasında əlaqəni anlamaqda çətinliklərin olması;
- hərflərin (xüsusən oxşar olanların) səhv salınması, yazanda sözdəki bəzi hərflərin buraxılması və ya yerinin dəyişdirilməsi;
- oxu sürətinin aşağı olması;
- xəttin çox pis olması (Salayev, 2020, s. 260).

Bilirik ki, təlim qarşıya qoyulmuş məqsədə müvafiq olaraq şagirdlərin bilik, bacarıq, vərdişləri mənimsəməsinə, əqli qabiliyyətin və potensial imkanların inkişafına, həmçinin dünyagörüşün formalaşdırılmasına xidmət edir. Təlim prosesində şagirdlər elmi bilikləri mənimsəyir, müəyyən bacarıq və vərdişlər əldə edirlər. Şagirdlər səslər haqqında ilk məlumatı əlifba təlimi dövründən etibarən almağa başlayır. Onlar I sinifdən başlayaraq səslə hərfi fərqləndirməyi bacarırlar. Dərslikdə verilmiş tapşırıqların köməyi ilə bu bacarıqlar daha da möhkəmləndirilir. Savad təlimi dövründə ədəbi tələffüzlə orfoqrafiyanın hər zaman uyğun gəlməməsi tədricən şagirdlərə çatdırılmalıdır. Onlar bilməlidirlər ki, nar, tar, ana və s. sözlərinin tələffüzü ilə yazılışı arasında heç bir fərq yoxdur. Lakin bir çox sözlərin yazılışı tələffüzündən fərqlənir. İbtidai sinifdə şagirdlərə məhz savad təlimi dövründən başlayaraq ilkin oxu və yazı vərdişləri aşılanmalı, onların yazıda buraxdıqları səhvlər müəllim tərəfindən qruplaşdırılmalıdır.

Yazıda sözün səs-hərf tərkibinin müəyyənləşdirilməsi ilə bağlı səhvlər və qrafik səhvlər mövcuddur. Birinci qrup səhvlərə, əsasən sözlərdə hərfburaxma, bir hərfi başqası ilə əvəzetmə, hərfartırma, hərflərin yerini dəyişmə hallarında rast gəlinir. Əlifba təliminin əvvəllərində hərfburaxma halları, əsasən şagirdin səsləri ayıra bilməməsindən irəli gəlir.

Maraqlı cəhət odur ki, şagirdlər çox vaxt saitləri buraxırlar. Hətta ikihecalı, üçhecalı sözlərdə də hərfburaxma hallarına rast gəlmək mümkündür. Bundan başqa şagirdlərdə samitlərin buraxılması hallarını da qeyd etmək lazımdır. Kiçikyaşlı məktəblilər əsasən iki samitin birləşdiyi hallarda səhvlər buraxırlar. Məsələn, "durna" əvəzinə "duna", "yoldaş" əvəzinə "yodaş" kimi yazırlar. Bundan başqa qoşasamitli sözlərdə də müəyyən səhvlərə yol verirlər. Misal olaraq, "təyyarə" əvəzinə, "təyarə", "yeddi" əvəzinə "yedi" və s. kimi hallara tez-tez rast gəlinir. Şagirdlər ən çox elementləri düzgün yazmır və ya oxşar elementlərdən birini buraxırlar. Məsələn, "m" əvəzinə "n"; "n" əvəzinə "m", "ç" əvəzinə "c" və s. Dəqiq yazılmayanda qoşa verilmiş hərflər (c-ç, u-ü, s-ş, ı-i, o-ö və s.) qarışdırılır.

Müəllim savad təliminin sonunda konkret şəkildə aşağıdakılara nail olmalıdır:

1. Şagird dəqiqədə 30–35 sözü sürətlə, bütöv sözlərlə (çətin sözləri hecalarla) oxumağı bacarmalıdır.

2. Şagird 20–25 sözdən ibarət cümlələri və mətni hərf buraxmadan, hərf əlavə etmədən üzündən köçürməyi bacarmalıdır.

3. Şagird 10–15 sözü, həmçinin həmin həcmdə mətni müəllimin diktəsi ilə yazmağı bacarmalıdır.

Bu vəzifələri yerinə yetirmək o qədər də asan deyildir. Ona görə də savad təlimi dövründə istifadə olunan metodlar peşəkar müəllimləri, metodistləri, tədqiqatçıları düşündürməlidir. Ümumiyyətlə, Azərbaycan dilinin orta məktəbdə öyrədilməsində yazı təlimi, orfoqrafik qaydalar üzərində işin düzgün təşkil olunması vacib amil kimi dəyərləndirilir. Şagirdlər ayrı-ayrı mövzuların tədrisi prosesində orfoqrafik qaydaların mənimsənilməsi ilə bağlı müxtəlif səpkili, praktik çalışmaları təhlil edirlər. Hər sinifdə şagirdlərin potensial imkanlarına uyğun olaraq orfoqrafik çalışmalar tərtib olunur. I sinifdə yalnız yazılışı tələffüzündən fərqlənməyən sözlərin, eləcə də cümlələrin, rabitəli və kiçik həcmli mətnlərin üzündən köçürülməsi, kommentarili yazı və həmçinin müəllimin diktəsinə əsasən imlaların yazılması tələb olunur.

Üzündənköçürmə prosesində şagird sözün hərf tərkibinə diqqətlə baxır, onu həmin sözün daxili nitqindəki səs tərkibi ilə müqayisə edir, fərqi aşkara çıxarır, sözün yazılışını bir anlığa yadda saxlayır, sözü səssiz tələffüz edir. Üzündənköçürmə ilk günlərdən hərflərlə, hecalarla deyil, bütöv sözlərlə yerinə yetirilməlidir. Şagirdlərdə diqqətliliyi, qavrayışın fəallığını tərbiyə etmək üçün bir baxışla sözün yadda saxlanılmasına nail olmaq lazımdır (Nəbiyeva, Abdullayeva, 2015, s. 433). Məqalədə I sinif dərsliyində verilmiş tapşırıqları nəzərdən keçirdim. Azərbaycan dili dərsliyində verilmiş tapşırıqda "k" səsinin iki funksiyalı olmasından söhbət açılır.

“K” hərfi iki səsi bildirir:	
kitab	karandaş
kök	konfet
kələm	kukla

(Nurullayeva, 2020, s. 12).

I sinif müəllimi üçün metodik vəsaitdə dərsin qısa planı bu şəkildə verilmişdir:

1. Mövzuya yönəltmə | Üzərində məktəb əşyalarının adları yazılmış kartların oxusu;
2. Dil qaydaları | “K” hərfinin ifadə etdiyi səslərin mənimsədilməsi;
3. Oxu | Öyrədilən hərflərdən ibarət sözlərin hecalarla oxusu;
4. Söz ehtiyatı | Məktəb əşyalarının təyinatı;
5. Yazı | “Ə ə” hərfinin hüsnxət normalarına uyğun yazılışı;
6. Formativ qiymətləndirmə (Nurullayeva, 2020, s. 35).

Dərslikdə verilmiş başqa bir çalışmaya nəzər yetirək:

“Ka” hərfinin işləndiyi sözləri seçib yazın.

kitab, kənd, konfet, park, kök, karandaş, kosmos

Xatırla

K hərfi

ke *ka*

kitab kart (Nurullayeva, Bayramova, 2020, s. 23).

Səslərlə tanışlıq zamanı şagirdlərin ən böyük çətinliyi odur ki, onlar savad təlimi dövründən “k” səsinin iki funksiyalı olmağını çətin qavrayırlar. Azərbaycan dili dərslərində “k” hərfinin sözlərdə iki səsi ifadə etməsini dəqiq göstərməyi bacarmaq, qoşasaitli və qoşasamitli sözləri düzgün tələffüz etmək, həmçinin yazmaq, mətnlərdə yazılışı çətin sözlər üzərində iş aparmaq və s. kimi bacarıqların yaradılması çox önəmlidir. Bunların əksəriyyəti alınma sözlərin orfoepik tələffüzü ilə əlaqəlidir və müəllim tədris prosesində tələffüzlə bağlı məsələlərə diqqət yetirməlidir.

Savad təlimi dövründə yazıya verilən tələblər bunlardır: orfoqrafik, kalliqrafik, gigiyenik və rabitəlilik. Hüsnxət təlimi prosesində isə müəllim I sinif şagirdlərinin fiziopsixoloji imkanlarını nəzərə almaqla rəngarəng metodlardan istifadə etməlidir:

1. *Genetik yol.* Bu yazı təlimi asandan çətinə, sadə hərf və ya sözlərin yazılışından, mürəkkəb, çətin (çox elementli) hərf və ya sözlərin yazılmasına aparan yoldur, genetik yoldan necə gəldi istifadə etmək olmaz. Bu prosesə I sinifdə şagirdlər yazmağı bacardıqdan (əlifba təlimindən) sonra başlamaq lazımdır.

2. *Takt yolu.* Bu yol sinifdə xüsusi situasiya yaradır. Şagirdləri say altında yazmağa həvəsləndirir. Bəs bu iş necə aparılmalıdır? Müəllim şagirdlərə eyni zamanda eyni şeyi

yazmağı tapşırır. Məktəblilərin hamısında sürət eyni olmadığı üçün müəllim bu işi şagirdlərin səviyyəsindən asılı olaraq müxtəlif variantlarda apara bilər: məsələn, savad təlimi dövründə müəllim "bir", "iki" dedikdə məktəblilər hərfin elementlərini, savad təlimindən sonrakı dövrdə bütövlükdə hərfi, II–IV siniflərdə isə bütöv sözü yazmalıdırlar. Belə olduqda təlim prosesi maraq doğurur. Takt altında şagirdlərin yazı sürəti bərabərləşir (Rəhimov, 2015, s. 38). Belə qənaətə gəlmək olar ki, metodistin bu yararlı fikirləri ibtidai sinif müəllimləri üçün əsas meyar olmalıdır.

Diqqətimi çəkən başqa bir nəşr "Məktəbə hazırlaşırıq" kitabıdır. Bu kitab 4 hissədən ibarətdir. Düşünürəm ki, kitab tərtibat baxımdan şagirdlərin yaş və bilik səviyyəsinə uyğundur. Dərslikdə "Qırmızı papaq" nağılı şəkillər üzərində təsvir olunmuşdur. Müəllim aşağıdakı suallar vasitəsilə nağılın qısa məzmunu ilə bağlı şagirdlərin nitqini formalaşdıra bilər.

- Canavar Qırmızı papağı necə aldatmaq istədi?
- Qırmızı papaq canavarı hansı əlamətlərinə görə tanıdı?
- Sən Qırmızı papağın yerində olsa idin, canavarı necə tanıyardın? (Salayev, 2020, s. 80).

"Məktəbə hazırlaşırıq" kitabına nəzər saldıqda gördük ki, müxtəlif tipli şəkillər, həftənin günləri, saatın öyrədilməsi, hərflərin kalliqrafik cəhətdən yazılma qaydaları öz əksini tapmışdır. Kitabda "Tanıyaq və öyrənək", "Dinləyək və danışaq", "Oxuyaq və yazaq", "Sayaq və düşünək", "Yaradaq və quraq" başlıqları altında azyaşlılar üçün maraqlı məlumatlara rast gəlmək mümkündür. Dərsliyin II hissəsində " Tanıyaq və öyrənək" başlığı altında "tövlə", "hin", "yem", "dayça", "quzu", "köşək", "küçük", "cücə", "çəpiş" sözləri verilib. Müəlliflər bir məqamı unudublar ki, bu şagirdlər məktəbə hazırlıq dövründədirlər. Bu sözlərin çoxu onların nə yaş səviyyəsinə, nə də fəal lüğət fonduna uyğun deyil. Dərsliyin aşağısındakı suallara nəzər salaq:

- Ev heyvanları çöl heyvanlarından nə ilə fərqlənir?
- Ev heyvanlarının faydası nədir?
- Sən hansı ev heyvanını bəsləmək istərdin? (Salayev, s. 42).

Məhz bu suallar vasitəsilə müəllim verilmiş sözlərin bir-bir mənasını izah edə bilər. Bu zaman şagirdlərin həm şifahi nitqi, həm də dünyagörüşü formalaşmış olar. Pedaqoq N. Kazımov haqlı olaraq qeyd edir ki, müəllimin məqsədyönlü, planlı və mütəşəkkil rəhbərliyi altındakı şagirdlərin öyrəndiyi bilik və bacarıqlar təsadüfi biliklər toplusu deyil, birbaşa cəmiyyətin sonrakı inkişafına yönəlir (Kazımov, 2011, s. 131). Sözsüz ki, cəmiyyət üçün şəxsiyyəti ilk növbədə ailə, mühit, daha sonra məktəb formalaşdırır.

Nəticə

Müasir ana dili tədrisi metodikasında bir neçə əsas yanaşma mövcuddur:

1. Kommunikativ yanaşma dilin istifadəsini real ünsiyyət şəraitində öyrənməyi əsas tutur. Bu yanaşma şagirdlərin yalnız dil qaydalarını deyil, eyni zamanda onlardan real həyatda necə istifadə edəcəyini öyrədir.
2. İnteraktiv təlim metodları şagirdlərin aktiv iştirakını təmin edən təlim üsullarını nəzərdə tutur. Bu yanaşma şagirdlərə daha çox müzakirələrdə iştiraklarına və fikirlərini sərbəst ifadə etmələrinə imkan yaradır.
3. Şagirdyönümlü təlim yanaşması şagirdin fərdi xüsusiyyətlərini nəzərə alaraq təlimin daha effektiv olmasına xidmət edir.
4. Problem əsaslı öyrənmə metodu şagirdlərin real həyatda qarşılaşdıqları çətinlikləri həll etməyə yönəlmiş təlim üsuludur. Bu yanaşma vasitəsilə savad təlimi dövründən başlayaraq şagirdlərdə analitik düşünmə bacarıqları formalaşır, ətraf aləm haqqında təsəvvürləri genişlənir, həmçinin lüğət ehtiyatları zənginləşir.

Ədəbiyyat

1. Kazımov, N. (2011). *Məktəb pedaqogikası.*
2. Nəbiyeva, Ş., Abdullayeva, G., Kərimova, A. (2015). *İbtidai siniflərdə Ana dilinin tədrisi metodikası fənnindən mühazirələr.*
3. Nurullayeva, Ü., Bayramova, İ., Zahidova, Ş., Allahverdiyeva, N., Xanalıyeva, A. (2020). *Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün Azərbaycan dili fənni üzrə dərsliyin metodik vəsaiti.*
4. Nurullayeva, Ü., Allahverdiyeva, N., Bayramova, İ., Xanalıyeva, A. (2020). *Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün Azərbaycan dili (tədris dili) fənni üzrə dərslik.* I hissə.
5. Nurullayeva, Ü., Bayramova, İ., Zahidova, Ş., Allahverdiyeva, N., Xanalıyeva, A. (2020). *Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün Azərbaycan dili (tədris dili) fənni üzrə dərslik.* II hissə.
6. Rəhimov, A. (2015). *Ana dilinin tədrisi metodikası.*
7. Salayev, K., Cəfərova, L., Həsənova, T., Nurullayeva, Ü., Əzimzadə, A. (2020). *Məktəbə hazırlaşırıq.* 1-ci kitab.
8. Salayev, K., Cəfərova, L., Həsənova, T., Nurullayeva, Ü., Əzimzadə A. (2020). *Məktəbə hazırlaşırıq.* 2-ci kitab.
9. Salayev, K., Şamilova, L., Nurullayeva, Ü., Reştiyeva, M. (2020). *Valideyn bələdçisi.*
10. Səfərəliyeva, F. (2014). *Uşaq folkloru və şagirdlərin bədii təfəkkürünün inkişaf etdirilməsi.*